UOT 37.01.

***Vahid Elbəyi oğlu Həsənov,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX DƏRSLƏRİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN MAHİYYƏTİ

***Вахид Эльбеи оглы Гасанов,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ЗНАЧИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ УЧЕБНЫХ ТЕХНОЛОГИЙ НА УРОКАХ ИСТОРИИ

***Vahid Elbayi Hasanov,***
*Azerbaijan State Pedagogical University*

# THE ROLE OF USİNG NEW TEACHİNG METHODS AT HİSTORY LESSONS

**Xülasə:** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Tarix dərslərində yeni təlim texnologiyalarından istifadənin əhəmiyyəti vurğulanıb. Tədrisdə tarix dərslərinin keyfiyyətinin yüksəldilməsində yeni təlim texnologiyalarının rolu, yeri və əhəmiyyəti geniş şərh edilib.
***Açar sözlər:*** *pedaqoji texnologiya, yeni təlim texnologiyası, İKT, interaktiv təlim*

**Резюме:** В статье была обоснована актуальность темы. Автором затронут уровень развития механизма проблемы. Была подчеркнута значимость разработки новых учебных технологий на уроках истории. Особое внимание было уделено качеству повышения роли новых учебных технологий, их месту и важности на уроках истории.
***Ключевые слова:*** *педагогическая технология, новые учебные технологии, ИКТ, интерактивное обучение*

**Summary:** The topicality of given article has been corroborated and degree of problem processing has been reviewed. At the same time, the importance of modern teaching methods has been mentioned. It is stated that new teaching methods have great importance and role on efficiency of history lessons.
***Key words:*** *education, pedagogical method, new teaching methods*

Müasir dövrdə elm inkişaf etdikcə onun əhatə dairəsi də genişlənməkdədir. Bu inkişaf xüsusilə təhsil sahəsində daha aktivdir. Hazırda təhsildə təlimin keyfiyyətinin yüksəlməsi üçün yeni təlim texnologiyaları, pedaqoji texnologiyalardan istifadə və onun tətbiqi diqqət mərkəzindədir. Bunun əsas səbəbləri müstəqil dövlətimizdə təhsilin yenidən qurulması, Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya etmək zərurətindən yaranmışdır.

Respublikamızda uzun illər mövcud olmuş sovet təhsil sisteminin qüvvədən düşməsi ilə bağlı olaraq təhsilimizin yenidən qurulması, Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya etmək zərurəti yaranmışdır. Bu zaman yeni pedaqoji anlayışlar meydana gəldi. Digər səbəb isə elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin təhsilə nüfuz etməsidir.

"Pedaqoji texnologiya", "yeni təlim texnologiyaları" anlayışının mahiyyətini dərk etmək üçün əvvəlcə sözün hərfi mənasına diqqət yetirilməlidir.

"Texnologiya" (yunanca *tecne*-sənət, ustalıq, bacarıq; *loqos*-elm). İstehsal prosesində hazır məhsul almaq üçün işlədilən xammal, material və yarımfabrikatların emalı, hazırlanması, aqreqat halının, xassələrinin formasının dəyişdirilməsi metodlarının məcmusu, xammal, material və yarımfabrikata müvafiq istehsal alətləri ilə təsir göstərməsi üsulları haqqında elm"dir.

"Pedaqoji texnologiya", yaxud "yeni təlim texnologiyaları" anlayışları öz mənşəyini ümumi texnologiya ilə bağlı izah və şərhlərdən götürür. Pedaqoji fikir araşdırıcılarından olan

F. Əliyeva və Ü. Məmmədovaya görə, "pedaqoji texnologiya" anlayışının məzmun və mahiyyəti aşağıdakı kimi təsnif oluna bilər:

1) təlim texnologiyası
2) tərbiyə texnologiyası
3) inkişaf texnologiyası
4) diaqnostika texnologiyası [1, s. 18]

Təlim texnologiyası dedikdə bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür. Tədqiqatçılar düzgün olaraq təlim texnologiyalarını pedaqoji texnologiyanın tərkib hissəsi kimi götürürlər. Rus araşdırıcılarından olan B.Lixaçova görə, "Pedaqoji texnologiya psixoloji-pedaqoji qaydaların cəmidir və bunlar formaları, metodları, üsulları, priyomları, tərbiyə vasitələrini müəyyən edir. Digər araşdırıcılar V.P.Bespalko "Pedaqoji texnologiya - təlim prosesinin reallaşdırılmasının məzmunlu texnikasıdır, İ.P. Volkov isə "pedaqoji texnologiya - təlim nəticəsində planlaşdırılmış müvəffəqiyyət prosesinin təsviridir", - yazaraq pedaqoji texnologiya anlayışına tərif verirlər. Texnologiyanı ustalıq, bacarıq, təlim metodlarının cəmi, tərbiyə sisteminin tərkib hissəsi kimi mənalandıran alimlər də vardır. Qərbi və Şərqi Avropa tədqiqatçıları olan V.M.Şenel və M.Çoşanov bu fikirdədirlər. V. M. Şenelə görə, "Texnologiya - sənətdir, ustalıqdır, bacarıqdır, təlim metodlarının cəmidir, vəziyyətin dəyişməsidir", M.Çoşanova görə isə "Təlim texnologiyası - didaktik sistemin tərkibi, prosessual bir hissədir" kimi təsvir edilmişdir [2, s. 7-8].

Bu gün müstəqillik yolunda uğurla addımlayan respublikamızın təhsil quruculuğu sahəsində qazandığı nailiyyətlər aparılan ardıcıl və davamlı təhsil siyasətinin nəticəsi kimi meydana çıxmışdır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) qeyd olunduğu kimi, son illər ölkəmizdə aparılan sosial-iqtisadi siyasət nəticəsində yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmışdır. Sənəddə təhsilin inkişafının bütün modern xüsusiyyətləri açıqlanmış, yeni təlim texnologiyalarından istifadə prosesi ön plana çıxarılmışdır. Strategiyada müasir təhsil kurikulumlarının əsas tələbi kimi fəal-interaktiv təlim texnologiyalarının dərslərə tətbiqi irəliləyişin əsas bazası kimi götürülür. Şagirdlərin təfəkkür qabiliyyətlərinin inkişafına yönələn texnologiyaların dərslərə tətbiqi tövsiyə olunur. Bu məqsədlə sənəddə yazılır: "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kominikasiya texnologiyalarına (İKT) əsaslanan, yaradıcı və məntiqi düşüncəni inkişaf etdirən, təhsilalanın (şagirdin) fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fərdi interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə davamlı olaraq mütərəqqi təlim metodlarının yaradılması və müəllimlərin səriştəliliyinin artırılması təhsil siyasətində mühüm yer tutur"**.** Dövlət Strategiyasının "Strateji hədəflər və tədbirlər" adlı 7-ci yarımbölümünün "təhsil alanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmunu-nun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması" adlı hissəsində "təfəkkürün və şəxsiyyətin inkişafına yönəlmiş, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim, qiymətləndirmə metodologiyası və resurslarının inkişafı" əsas istiqamətlərdən biri kimi verilmişdir ki, bu da hər bir müəllimdən yeni təlim texnologiyalarına dərindən yiyələnməsi tələbi deməkdir. Ancaq məktəblərdə apardığımız müşahidələr göstərir ki, müəllim şagirdlərin qazanmış olduqları bilik və bacarıqlarını onların idrak fəallığı ilə əlaqələndirilməsində, təlim texnologiyalarının tətbiqinin reallaşdırılmasında, lazımınca səriştə və peşəkarlıq göstərilməsində çətinliklərlə üzləşir. Bunun əsas səbəblərindən biri müəllimin yeni təlim texnologiyalarından istifadənin və interaktiv metodların mahiyyətini dərindən mənimsəməməsidir.

Elmi-metodiki qeydlərdə tez-tez səsləndirilən **"**Azərbaycanda bir neçə ildir ki, ənənəvi təhsil sistemi öz dövrünü başa vurub" pedaqoji dilemması artıq tədrisdə özünü doğrultmaqdadır. Qeyd edək ki, sovet təhsil sistemində uzun illər hökmran rol oynamış ənənəvi təhsil sistemində təhsilalanlara bir obyekt kimi yanaşılıb, təhsildə avtoritar idarəetmə üsullarına üstünlük verilməsi artıq öz mövqeyini itirib. Azərbaycan müstəqillik qazandıqdan sonra dünya təhsil sisteminə uyğun, müasir tələblərə cavab verən təhsil sisteminin qurulması təhsilimizin bugünkü

uğurunu təmin edib. Hazırda ali və orta ümumtəhsil məktəblərində yeni təlim texnologiyalarının tədrisə tətbiqi, keyfiyyətli sinif-dərs sisteminin qurulmasına geniş imkanlar açır. "Tədrisdə müasir təlim metodları" adlı internet materialında yeni təlim texnologiyalarının dərslərə tətbiqinin müsbət mahiyyəti açıqlanaraq göstərilir ki, "Sinif-dərs sisteminin keyfiyyət təminatında ənənəvi dərslərdən fərqli olaraq, müasir dərsin təşkili həlledici rol oynayır. Bu halda sinif mühitində son dərəcə əhəmiyyətli dəyişikliklər baş verir, öyrədənlə öyrənən arasında, şagirdlərin öz aralarında və məktəblə valideynlər arasında müasir tələblərə cavab verən qarşılıqlı əlaqələr qurulur. Müasir təlim metodlarından biri olan interaktiv təlim üsullarından və İKT-dən geniş istifadəyə yeni imkanlar yaranır. Bu isə müasir təlim prosesinin qarşıya qoyduğu məqsədlərə çatmağı daha da sürətləndirir"

Təhsilimizə XX əsrin sonlarından daxil olmuş "İnteraktiv" termini "dialoq, qarşılıqlı əlaqədə fəaliyyət göstərmək" kimi izah olunur. İnteraktiv təlim metodları və üsullarının tətbiqi mahiyyət etibarilə mühüm üstünlüklərə malik olub tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, dərsdə fəallığının maksimum artmasına zəmin yaradır. İnteraktiv təlim şagirdlərə aşılanan bacarıq və vərdişlərin kompleksi kimi başa düşülür. Məktəb təcrübəsi sübut edir ki, interaktiv təlim üçün aşağıdakılar səciyyəvidir:

-şagirdlərin aktiv fəaliyyəti;

-müəllimin şagirdlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı;

-didaktik oyunlardan istifadə olunması;

-şagirdlərin sinifdə ənənəvi yerləşdirilməsi.

İnteraktiv təlim prosesində şagirdlərə mövzu ilə bağlı daha çox bilik və bacarıq aşılamaq mümkündür. Eyni zamanda, bu metodlar mövzuların spesifik xüsusiyyətlərindən və müəllimin dərsin müxtəlif mərhələlərini həmin mövzu ətrafında birləşdirə və əlaqələndirə bilmək bacarığından asılıdır. X. Qədimova yazır: "Müasir şəxsiyyəti hafizənin gücləndirilməsinə və yalnız informasiya toplanmasına yönəlmiş, real həyatın tələbatını nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyil. Yəni ənənəvi dərsdə təlim yaddasaxlama qabiliyyətinə əsaslanır, şagird materialın təhlilini, təsvirini, nəticəni və ümumiləşdirməni hazır şəkildə alır. Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, hadisələrə tənqidi yanaşmağı, müstəqil inkişaf etmək bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etməlidir" [3, 638].

**Mövzunun aktuallığı.** Tarix dərslərində yeni təlim texnologiyalarından istifadənin mahiyyətinin öyrənilməsi nəticəsində müəyyən etdik ki, bu vaxta qədər bu mövzu dərindən araşdırılmadığı üçün bu sahədə bir boşluq var. Həmin boşluğun doldurulmasına çox böyük ehtiyac var.

**Nəticə olaraq deyə bilərik ki,** tarix dərslərində yeni təlim texnologiyalarından istifadənin mahiyyəti mövzusunun təhlilindən aydın olur ki, tarix dərslərinə yeni təlim texnologiyalarının tətbiqi fənnin təkmilləşməsinə və tədrisin keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Bu sahədəki boşluğun doldurulması xüsusi əhəmiyyət kəsb edir

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəa və yeniliklər tarixin tədrisi metodikası elmini yetərincə zənginləşdirir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalənin məzmununda və əldə olunan nəticələri ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Ədəbiyyat:**

1. Ağayev Ə. Təlim proses: Ənənə və müasirlik. Bakı, 2006.
2. F.Əliyeva və Ü.Məmmədova. Müasir təlim texnologiyaları. Bakı, 2014.
3. F.İbrahimov və R.Hüseynzadə. Pedaqogika. I cild. Bakı, 2012.

**E-mail:** vahid.hesenov.1995@mail.ru
**Rəyçilər:** *ped.ü. elm. dok.* T.M.İsayeva,
*tarix ü. elm. dok.*S.M.Seyidova
**Redaksiyaya daxil olub:** 29.11.2018.